

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 may 2026-cı il №32 (3034) https://mod.gov.az Qiyməti 30 qəpik

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər





***Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü günüdür.***

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin xatirəsini ehtiramla yad edib.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə anıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsinə ehtiramlarını ifadə edərək məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

## Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 103-cü ildönümü ilə bağlı paylaşım edib




Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə bağlı paylaşım edilib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Ümummilli Lider Heydər Əliyev bugünkü Azərbaycanı görsəydi, şad olardı. Əminəm ki, Onun ruhu şaddır, çünki bugünkü Azərbaycan Onun əsəridir".

## Birinci vitse-prezident Mehriban Əliyeva: Dahi şəxsiyyətin nurlu, əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesabında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda qeyd olunub:

"Heydər Əliyev - 103. Dahi şəxsiyyətin nurlu, əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq".

## Faşizm üzərində Qələbə uğrunda mübarizədə həlak olan Azərbaycan övladlarının xatirəsi ehtiramla anılıb

Mayın 9-da faşizm üzərində tarixi Qələbənin 81 ili tamam oldu.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət ediblər.

Dövlətimizin başçısı və birinci xanım Həzi Aslanovun abidəsinin önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsinə ehtiramlarını bildiriblər.



## Birinci vitse-prezident Mehriban Əliyeva faşizm üzərində qələbənin ildönümü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesablarında faşizm üzərində qələbənin ildönümü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Faşizm üzərində Qələbə Günü münasibətilə hər birinizi təbrik edir, sizə və doğmalarınıza cansağlığı və xoş günlər arzulayıram".

## "EFES-2026" təlimində tapşırıqlar uğurla icra olunub



Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusunun iştirakı ilə Türkiyədə keçirilən "EFES-2026" çoxmillətli təlimində növbəti tapşırıqlar uğurla icra olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin planına uyğun olaraq, Azərbaycan, Türkiyə və Macarıstanlı hərbçiləri tərəfindən paraşüt hazırlığı üzrə müxtəlif tapşırıqlar praktiki yerinə yetirilib.

Müxtəlif yüksəkliklərdən paraşüt tullanışları zamanı iştirakçı ölkələrin və "EFES-2026" təliminin bayrağı daxil olmaqla ümumilikdə 53 bayraq Türkiyə səmasında dalğalandırılıb.

Qeyd edək ki, hərbi qulluqçularımız digər iştirakçılarla birgə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bizim bütün hərbçilərimiz, qəhrəman döyüşçülərimiz ən yüksək qiymətə layiqdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Cəbrayıl rayonunun Şükürbəyli kəndinin açılışında iştirak ediblər. Həmçinin Şükürbəyli kəndində inşa edilmiş fərdi evlərdə yaradılmış şəraitlə və Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının binasının tikintisi ilə tanış olublar. Sonra Soltanlı kəndində "AzərEnerji" ASC-nin 330 kV-luq "Şəfəq" yarımstansiyasının açılışında iştirak edib.

Görülmüş işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verilib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.



### Prezident İlham Əliyevin çıxışı

- İlk növbədə, sizi doğma Vətənə qayıtmağınız münasibətilə təbrik edirəm. Şükürbəyli kəndi tamamilə yenidən qurulub. Bildiyiniz kimi, işğal dövründə Ermənistan dövləti bu kəndi tamamilə dağıtmışdı, bir dənə də salamat bina qalmamışdı. Mənim keçmiş köçkünlərlə işğal dövründə çoxsaylı görüşlərim zamanı həmişə deyirdim ki, biz torpaqları azad edəndən sonra bütün şəhərləri, kəndləri quracağıq, onları daha gözəl vəziyyətə gətirəcəyik və bu gün Şükürbəyli kəndinin timsalında bunu görürük. Kənd çox müasirdir, yaşamaq, çalışmaq, təhsil almaq üçün bütün şərait - məktəb, musiqi məktəbi, iki uşaq bağçası, tibb məntəqəsi, əlbəttə, gözəl, yaraşıqlı evlər var ki, burada siz - Şükürbəyli kəndinin sakinləri rahat yaşayasınız.

Uzun illər ərzində bu torpaqlar işğal altında olub. Ermənistan dövləti Azərbaycan xalqının irsini bu ərazidən tamamilə silmək istəmişdir, ancaq buna nail olmamışdır. Baxmayaraq ki, şəhər və kəndlərimiz viran qoyulub, Azərbaycan xalqının tarixi yaddaşı heç vaxt silinməmişdir. Bilirəm ki, siz və bütün keçmiş köçkünlər bir arzu ilə - öz doğma torpaqlarına qayıtmaq arzusu ilə yaşamısınız. Bəziləriniz Biləsuvar rayonunda dövlət xətti ilə verilmiş evlərdə məskunlaşmısınız, bəziləriniz özünüz üçün hansısa şərait qurmusunuz. Amma, əlbəttə ki, doğma torpaq, doğma Vətən hər şeydən daha əzizdir.

Bu gün çox gözəl bir gündür, tarixi bir gündür, ədalətin təntənəsi günüdür. Biz - bu torpaqların sahibləri nəinki bu torpaqları düşmən əlindən döyüşərək aldıq, şəhidlər verərək aldıq, eyni zamanda, bu torpaqları canlandırdıq. İşğal dövründə Ermənistan dövləti Cəbrayıl rayonunda bir daşı daş üstə qoymamışdı. Düzdür, yol çəkmək istəyirdi, amma buna vaxtı çatmadı. Amma bir daşı daş üstə qoymamışdır. Cəbrayıl tamamilə yerlə-yeksan edilmişdir, nə şəhərdə, nə də ki, kəndlərdə bir dənə də salamat bina qalmamışdı, Ağdam kimi. Zəngilanda tək-tük ev qalmışdı, orada qanunsuz məskunlaşma da aparırdılar. Amma Füzuli, Ağdam, Cəbrayıl tamamilə dağıdılmışdır. Evlər söküldü, daşlar talan edildi, müxtəlif yerlərdə bazarlarda satıldı. Biz isə qurub-yaradırıq. İndi Cəbrayıl rayonunda bir neçə min insan yaşayır. İlk növbədə, Cəbrayıl şəhərində, - şəhərin mərkəzi də buradan o qədər də uzaq deyil, - ondan sonra Horovlu kəndində, Cocuq Mərcanlıda. Aprel döyüşlərindən sonra biz o kəndi yenidən qurduq. Ən çox insanlar burada yaşayacaq, hələlik 635 ev. Amma mənə verilən məlumata görə, köçmək, qayıtmaq istəyənlərin sayı daha çoxdur, təqribən 900-dən çoxdur. Ona görə kəndin ikinci mərhələsini də biz nəzərdə tuturuq.

Əlbəttə ki, yaşayışla əlaqədar, təhsillə bağlı məsələlər həll olunduqca, məşğulluq məsələləri də həll edilir. Burada da vətəndaşların məşğulluğunu təmin etmək üçün bütün müvafiq göstərişlər verildi - həm mövcud olan dövlət sektorunda iş yerləri, təbii ki, təqdim olunur, ondan sonra kənd təsərrüfatı ilə məşğul olmaq üçün, xüsusilə heyvandarlıq və bitkiçiliklə. Bunlardan başqa, Cəbrayıl rayonunda sənaye zonası - "Araz Vadisi" Sənaye Zonası fəaliyyət göstərir, orada da böyük sahəni biz nəzərdə tutmuşuq, 200 hektar sahə ayrılıb. Bu sənaye zonasında indi 20 rezident var, artıq istehsala da başlamışlar. O, daha da böyüyəcək, o da buradan çox da uzaqda deyil. Onu da bildirməliyəm ki, azad edilmiş ərazilərdə biz cəmi iki sənaye zonası nəzərdə tutmuşuq - biri Ağdamda, biri də Cəbrayılda.

Ümumiyyətlə, Cəbrayılın gələcəkdə həm kənd təsərrüfatı, həm də nəqliyyat nöqteyi-nəzərindən ölkəmiz üçün böyük töhfəsi olacaq. Köhnə yolu siz yaxşı bilirsiniz, yaxın ki, xatırlayırsınız, sovet vaxtında - işğala qədər çox ensiz bir yol idi, düz Araz çayının boyunca gedirdi. Onu biz bərpa etdik, amma yeni yol, - indi bilmirəm, siz onu görmüsünüz, yoxsa yox, - Zəngəzur dəhlizinin bir hissəsi olan, ta Ermənistan sərhədinə gedən dördzolaqlı yol. Yəni, bunun ondan yuxarı standartları da yoxdur. Ona görə nəqliyyat məsələləri də burada həll olunur və gələcəkdə Cəbrayıl, beynəlxalq nəqliyyat dəhlizi üzərində qurulan şəhər və kəndlər bundan faydalanacaq.

Cəbrayılda bizim ən böyük Günəş elektrik stansiyaları inşa edilir - üç stansiya, ümumi gücü 340 meqavat. Yəni, bu gün 340 meqavatla bütün Qarabağı işıqlandırmaq olar. Amma nəzərə alsaq ki, biz artıq Zəngilanda, Laçında, Kəlbəcərdə 300 meqavatdan çox su elektrik stansiyaları işə salmışıq, təqribən bir-iki il ərzində bu bölgənin Günəş və su potensialı elektrik istehsalı üçün 700 meqavata yaxın olacaq. Yəni, bu, ölkə üçün, məşğulluq üçün çox böyük xeyir gətirəcək. Yəni, azad edilmiş bütün bu ərazilər ölkəmizin bütün başqa əraziləri ilə bağlanır - yollarla, hava limanları ilə, elektrik və su xətləri ilə. İndi "Xudafərin", "Qız Qalası" su anbarlarının suyundan da istifadə edəcəyik, orada elektrikdən də istifadə edəcəyik. Beləliklə, bir daha bütün dünyaya göstərəcəyik ki, biz qurub-yaradan xalqıq, eyni zamanda, döyüşən xalqıq. Bu torpaqları biz qan tökərək qaytarmışıq, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - parlaq Qələbə qazanmışıq, bu Qələbənin müasir tarixdə tayı-bərabəri yoxdur, yəqin ki, olmayacaq və biz bu əbədi Qələbə ilə fəxr etməliyik. Gənc nəsil də evlərdə, ailələrdə, məktəblərdə bu ruhda tərbiyə almalıdır ki, biz müzəffər ölkə, xalq kimi bundan sonra qürurla yaşayaq.

Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram.

* * *

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şükürbəyli kəndinin sakinləri ilə söhbət edib, açarların təqdim edilməsi mərasimi olub, şəkillər çəkdirilib.

* * *

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərində inşa olunmuş 104 mənzilli ilk yaşayış kompleksinin açılışında iştirak edib, kompleksdə yaradılmış şərait barədə dövlətimizin başçısına məlumat verilib. Sonra "Zangilan City Park Hotel"in təməlini qoyub, dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verilib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Bu gün Zəngilan sakinləri üçün çox gözəl, əlamətdar bir gündür. Uzun fasilədən sonra siz doğma vətənə - Zəngilan şəhərinə qayıdırsınız. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür və bizim görüşümüzün məhz bu gündə keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu doğma torpaqlarımızın işğaldan azad olunması idi. Biz - onun davamçıları onun vəsiyyətini yerinə yetirdik. Bu gün Azərbaycan ərazisində hər qarış torpaq Azərbaycan xalqına məxsusdur. İşğalçıları torpaqlarımızdan qovaraq öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində rolu danılmazdır. Onun fəaliyyəti nəticəsində Azərbaycan ağır günlərdə öz müstəqilliyini qoruya bilmişdir. Bildiyiniz kimi, yaşlı nəsil o illəri yaxşı xatırlayır - 1993-cü ildə nəinki ərazi bütövlüyümüz, müstəqilliyimiz təhlükə altında idi. O vaxt ölkəmizə rəhbərlik etmiş şəxslər ölkəmizi fəlakətə aparırdılar. Həm torpaqlarımızın işğal altına düşməsi, Şuşanın, Laçının, Kəlbəcərin erməni işğalına məruz qalması, daxili çəkişmələr, özbaşınalıq, anarxiya və ovaxtkı hakimiyyətin təxribatçı və xəyanətkar fəaliyyəti nəticəsində vətəndaş müharibəsinin başlanması - gənc müstəqil dövlətimiz olan Azərbaycan faktiki olaraq parçalanma ərəfəsində idi. O vaxt əgər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, xalqımızın, dövlətimizin taleyi çox ağır ola bilərdi. Məhz onun fəaliyyəti nəticəsində bütün mənfi meyillərə son qoyuldu, vətəndaş müharibəsinə son qoyuldu, hakimiyyətsizlik, özbaşınalıq kimi hallara son qoyuldu, ölkəmizdə sabitlik yaradıldı, inkişaf başlandı və yavaş-yavaş ordu quruculuğu da artıq getməyə başladı. Onun Azərbaycana gəlməsindən əvvəl faktiki olaraq nizami ordumuz yox idi və Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimiz məhz buna görə idi. O vaxt ordumuza rəhbərlik edən şəxslər nəinki hərbi peşə nədir, onu bilmirdilər, hətta onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdü. "Şuşa əldən gedərsə, başıma güllə çaxaram" deyən o namərd, xain bu gün də orada-burada sülənir. Amma o vaxt dərdimiz onda idi ki, onun kimi adamlar Azərbaycanın əsas vəzifələrini zəbt etmişdilər. Heç bir biliyi, bacarığı, iş təcrübəsi olmayan, küçədən keçən insanlar birinci, ikinci, üçüncü, dördüncü şəxs təyin olunmuşdular. Ordumuz faktiki olaraq quldurların əlində idi.

Bütün bu mənfi meyillərin qabağını almaq, o cümlədən o vaxt müxtəlif qanunsuz silahlı birləşmələri yerinə oturtmaq üçün güclü siyasi iradə və xalqın dəstəyi lazım idi. Hər ikisi də var idi. Ulu Öndərin Azərbaycan tarixində həlledici rolu bizim yaddaşımızdan heç vaxt silinməyəcək. Onun siyasətini davam etdirərək bu gün bax, biz buradayıq, Zəngilandayıq. Düşməni torpaqlarımızdan qovduq, ərazi bütövlüyümüzü bərpa etdik. O vaxta qədər güclü iqtisadiyyat qurduq, güclü ordu qurduq, cəmiyyətdə vətənpərvərlik meyillərini gücləndirdik və faktiki olaraq, Azərbaycanı beynəlxalq təcriddən də çıxara bildik. İkinci Qarabağ müharibəsi zamanı bizə nə qədər təzyiqlər olsa da, onların heç biri nəticə vermədi. Halbuki bizi dayandırmaq istəyənlərin sayı kifayət qədər çox idi. Birincisi, o vaxt ATƏT-in Minsk qrupuna rəhbərlik edən həmsədrlər, o ölkələr. Hərəsi öz səbəbinə görə bizi dayandırmaq istəyirdi. 44 gün ərzində dəfələrlə bizə təzyiqlər göstərilirdi. O ölkələr sıradan olan ölkələr deyil - onlar nüvə dövlətləridir, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Görün, biz kimlərlə üz-üzə qalmışdıq. Hər biri bu işğalı əbədi etmək, bundan bir alət kimi istifadə etmək və nəticə etibarilə Azərbaycan xalqına rahat nəfəs almaq imkanı verməmək üçün dəridən-qabıqdan çıxırdı. Təkcə onlar deyil, başqa ölkələr də bizim qələbəmizi istəmirdilər.

Bunların qabağında güclü iradə göstərmək, bunların qabağında demək ki, biz öldü var, döndü yoxdur, yolumuzdan dönməyəcəyik, əlbəttə ki, böyük iradə tələb edirdi. Yenə də 1993-cü ildəki kimi, xalqın dəstəyi lazım idi. O dəstək var idi və bütün xalqımız bir yumruq kimi birləşmişdi. O, mənə güc verirdi. İşin sonuna qədər - Şuşanın azad olunmasına qədər biz dayanmaq fikrində deyildik.

Təbii ki, o vaxt müharibənin davam etdirilməsi məqsədəuyğun deyildi və sonrakı hadisələr bunu əyani şəkildə göstərdi. Şuşanın işğaldan azad olunması ilə faktiki olaraq Ermənistan ordusunun beli qırılmışdı. Ermənistan silahlı qüvvələri faktiki olaraq mühasirədə qalmışdı. O vaxt müharibənin dayandırılması bizə imkan verdi ki, qan tökülmədən Kəlbəcər, Laçın, Ağdam rayonlarını siyasi yollarla, faktiki olaraq ultimatum yolu ilə qaytara bilək. Ultimatum da ondan ibarət idi ki, əgər Ermənistan qısa müddət ərzində, faktiki olaraq bir ay, ondan da az müddət ərzində bu torpaqlardan çıxmasa, Qarabağda qalmış bütün erməni silahlı qüvvələri məhv ediləcək. Əmr də verilmişdi və 15 minlik erməni silahlı qüvvələrinin kontingenti məhv olunacaqdı. Məhz buna görə Ermənistan, yenə də deyirəm, bizim tələblərimizə uyğun Kəlbəcər, Laçın və Ağdam rayonlarından çıxmışdı.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bizim bütün hərbçilərimiz, qəhrəman döyüşçülərimiz ən yüksək qiymətə layiqdir

(Əvvəli 2-ci səhifədə)

Burada heç bir başqa amil yox idi, heç bir kənar qüvvə onlara təzyiq etmirdi, ancaq bizim sərt mövqeyimiz. Nəzarətdən kənarda qalan hissə də gec-tez bizə qayıtmalı idi, amma o tez oldu, nəinki gec. Yenə də güclü iradə, peşəkarlıq və 2023-cü ilin sentyabrına qədər görülmüş taktiki işlər, addımlar, hərbi əməliyyatlar - bütün bunlar zəmin hazırladı ki, antiterror əməliyyatı cəmi bir neçə saat davam etsin. Ermənistan ordusu ikinci dəfə təslim oldu, separatçılığa son qoyuldu, işğala son qoyuldu və biz suverenliyimizi tam bərpa etdik.

Bütün bu şanlı tarix bizimlə əbədi olacaq. Təbii ki, bizim nəsil bunu heç vaxt unutmayacaq, gənc nəsil isə bunu bilməlidir - məktəblərdə, ailələrdə, cəmiyyətdə. Bu parlaq tariximiz bizim qürur mənbəyimizdir, bu, əbədi belə olacaq.

Əlbəttə ki, bir daha qayıdıram Ulu Öndərin siyasi mirasına. Həlledici məqam məhz 1993-cü ildə idi, oktyabr ayında Prezident vəzifəsinə seçiləndən sonra bütün o mənfi meyillərin qabağı alındı. Düzdür, o vaxt bizim imkanlarımız çox məhdud idi, çoxlu problemlər var idi, bir nömrəli problem məcburi köçkünlərin yaşayış şəraiti idi. Onu da biz tədricən həll etməyə başlamışdıq və artıq 2007-ci ildə çadır şəhərcikləri qalmamışdı, orada vaxtilə məskunlaşmış insanları biz evlərə, mənzillərə köçürdük. İşğal dövründə hər dəfə keçmiş köçkünlərlə dövlət xətti ilə yeni inşa edilmiş şəhərciklərdə görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti bir yerdir. Torpaqlar azad olunandan sonra sizin üçün daha gözəl şərait yaradılacaq. Bax, bu gün bu Zəngilan şəhərinin bu gözəl mənzərəsi o sözlərimi bir daha təsdiqləyir.

İşğalın fəsadlarını aradan qaldırmaq - bu da çox çətin bir prosesdir. Minalar, torpaqların deməkolar ki, işğalçılar tərəfindən zəhərlənməsi, ekosid. Bax, bu Bəsitçay dünyaca məşhur olan bir qoruq idi. Deyilənə görə, bura dünyada ikinci ən böyük çinar ağaclarının bir yerdə olması və qədim çinar ağaclarının qoruğu idi. Deməkolar ki, onun yarısını Ermənistan dövləti məhv edib. Bəzi ağacları yandırıb, bəzilərini də kəsib bazarlarda satıb. Ümumiyyətlə, bizim meşə fondunun 60 min hektarı vəhşi işğalçılar tərəfindən məhv edilmişdir. Onların əsas hissəsi Kəlbəcər, Laçın rayonlarındadır, amma Zəngilanda da var. Həm talançılıq, həm düşmənçilik, qəddarlıq, özü də heç bir əsası olmadan. Azərbaycan xalqı erməni xalqına heç bir pislik etməmişdir. Onların bizə olan nifrətinin səbəblərini yəqin ki, psixiatrlar, psixoloqlar, həkimlər araşdırmalıdırlar. Nə qədər ki, Ermənistan cəmiyyətində Azərbaycana qarşı nifrət hissi ilə yaşayan siyasi qüvvələr var, bir o qədər də biz ayıq olmalıyıq.

Bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik. Biz istəməsəydik, sülh olmayacaqdı. Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər. Gücləri var idisə, elə 2020-ci ildə kömək edərdilər də Ermənistana. Bu gün Ermənistana gəlib özünü saxta qəhrəman kimi göstərən bəzi xarici liderlər 2020-ci ildə elə həmin liderlər idi də öz ölkələrində hakimiyyət başında, gəlib yiyə duraydılar da Ermənistana. Boşboğazlıqdan başqa heç nə yoxdur. Onların da işigücü boşboğazlıqdır, ona görə öz ölkələrində onların dəstək əmsalı 10-15 faizdir. İndi guya ki, Ermənistanı bizim əlimizdən onlar çıxarıb xilas ediblər. Bizim Ermənistanı məhv etmək niyyətimiz yox idi, Ermənistanın müstəqilliyini onun əlindən almaq niyyətimiz yox idi. Bu gün hələ də Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri guya ki, keşik çəkirlər. Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə. Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq.

Biz bizə məxsus olan torpaqlarımızı işğalçılardan qan tökərək azad etdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bizim bütün hərbçilərimiz, qəhrəman döyüşçülərimiz ən yüksək qiymətə layiqdir. Biz həm döyüş meydanında, həm siyasi müstəvidə həm iradə, peşəkarlıq və yüksək mənəvi keyfiyyətlər, ləyaqət göstərmişik. Məhz buna görə bu gün Azərbaycana əvvəlki dövrdə olan hörmət bəlkə də birə-on artdı.

Bu gün hər şey göz qabağındadır. Azərbaycanın beynəlxalq mövqeləri, beynəlxalq nüfuzu nə qədər yüksək səviyyədədir. Bizə olan hörmət, rəğbət, xoş münasibət getdikcə daha da genişlənir. Bütün bunların səbəbi var. Əlbəttə ki, bizim ləyaqətli siyasətimiz, sözlə əməl arasındakı birlik və təbii ki, bizim hərbi qələbəmiz. Mən bunu dəfələrlə demişəm, bunu indi hər kəs görə bilir. Təkcə bunu görmək üçün tarixçi olmaq lazım deyil. Qısa müddət ərzində bizim qədər tam, mütləq, birmənalı qələbə qazanan ikinci ölkə olmamışdır. Özü də biz bu müharibəni bütün beynəlxalq humanitar normalara uyğun aparmışıq, Ermənistandan fərqli olaraq. Onlar bizim şəhərlərimizi, kəndlərimizi "İsgəndər-M", "Skad" və digər ballistik uzaqmənzilli raketlərlə vururdular. Mülki əhaliyə qarşı müharibə aparırdılar - həm Birinci Qarabağ müharibəsində, həm İkinci Qarabağ müharibəsində. Biz isə ermənilərə mənsub olan bir dənə də mülki obyekti dağıtmamışıq.

Onlar Xocalı soyqırımını törətdilər. Biz isə onlar Qarabağdan Ermənistana gedəndə yolda polislər düzmüşdük ki, onlara çörək, su verək. Bax, fərq budur. Mən indi daha dərinə getmək istəmirəm, hər bir xalqda yaxşı və pis nümayəndələr var. Amma bütövlükdə götürəndə budur fərq. Zəngilanı yerlə-yeksan edən təkcə Ermənistan rəhbərləri deyildi, təkcə Qarabağ separatçıları deyildi. Deməkolar ki, onların bütün əhalisi kütləvi surətdə gəlib talançılıqla məşğul idi. Hətta deyirdilər ki, gedirik talana. Yəni, bu, onlarda bir qayda idi, bu, normal bir davranış idi. Yəni, vəhşilik normal bir davranış idi - kim nə qədər çox daş oğurladı, kim nə qədər çərçivə çıxartdı, kim nə qədər dam örtüyü çıxartdı. Sonra aparıb həm İran bazarlarında, həm də Ermənistan bazarlarında satırdılar. Bax, fərq budur. Biz bunu edə bilərik? Bizim insanların heç ağlına gəlməz belə.

Ona görə bilirsiniz, yenə də deyirəm, bu gün dünyada bizə olan hörmətin bir çox səbəbləri var: həm qalib xalq kimi, həm müharibəni müharibə qanunlarına uyğun aparan xalq kimi, həm humanitar qaydalara riayət edən xalq kimi və qurubyaradan xalq kimi. Yaxşı, 30 il bu Zəngilan onların əlində idi, daşı-daş üstə qoyardılar da əgər bu, onların torpağıdırsa. Zəngilanın o dağılmış məscidini biz konservasiya etmişik, orada da kiçik bir fotosərgi təşkil etmişik ki, heç kim unutmasın nə günə salmışdılar onlar bizim dini-tarixi abidələrimizi. Bu onların idisə, tikib qurardılar da. Cəmi beş il keçib, təkcə Zəngilan yox, görün, hər yerdə quruculuq işləri aparılır - yollar, körpülər, elektrik stansiyaları, su anbarları, köçkünlər üçün evlər, məktəblər tikilir. Bax, sahiblər belə edər. Talançı, işğalçı isə gələr sökər, dağıdar. Amma nə qədər söksələr də, yenə də bizim iradəmizi qıra bilmədilər. Biz qayıtmalı idik və qayıtmışıq bu torpaqların sahibləri kimi. İndi də qurub-yaradırıq, o cümlədən Zəngilan rayonunda. Bu, şəhərdə birinci yaşayış məhəlləsidir, hələ ikinci, üçüncü olacaq. Bu layihələrin bəziləri təsdiqləndi, bəziləri indi təsdiqlənəcək, inşaat gedəcək. Zəngilanda ermənilər tərəfindən dağıdılmış dediyim o məscidin yanında gözəl, bəlkə də ölkəmizin ən gözəl məscidlərindən biri olan Zəngilan məscidini inşa etdik. Zəngilanda, əslində, birinci yaşayış məntəqəsi qurulmuşdur, Ağalı kəndində. Bu da deməkolar ki, Zəngilana xüsusi münasibətin əlaməti idi. İndi onun yanında Məmmədbəyli kəndi salınıbdır. Şəhər genişlənəcək.

Zəngilanda hava limanı, konqres mərkəzi fəaliyyət göstərir. Yenə də azad edilmiş ərazilərdə birinci kənd təsərrüfatı müəssisəsi - "Dost Aqropark" məhz Zəngilanda yaradılmışdır və mənə verilən məlumata görə, artıq o, öz hədəfinə çatır. Çünki hədəfi 10 min baş cins mal-qara idi, bu hədəfə artıq yaxındır, 6 min hektara yaxın torpaqda da işlər gedir.

Zəngilan nəqliyyat dəhlizinin üzərində yerləşir. Biz Zəngilanı nəinki Azərbaycanın, bölgənin nəqliyyat mərkəzlərindən birinə çevirəcəyik.

Dəmir yolu inşa edilir. Yaxın gələcəkdə - bəlkə də bir il, ilyarım bundan sonra Bakıdan Zəngilana dəmir yolu ilə gəlmək mümkün olacaq, necə ki, bu gün Ağdama dəmir yolu ilə gedirlər. Gələn il Xankəndiyə dəmir yolu ilə gedəcəklər. Bu dəmir yolu davam edəcək, Zəngəzur dəhlizi ilə Naxçıvanı birləşdirəcək. Faktiki olaraq buradan Naxçıvana 30 dəqiqəlik bir yol olacaq. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanı bu coğrafi bağlantı ilə ölkəmizin əsas hissəsi ilə birləşdirəcəyik.

Eyni zamanda, İran sərhədində körpü deməkolar ki, tikilib bizim təşəbbüsümüzlə və indi sərhəd-gömrük infrastrukturu, binalar tikilir. Yəqin ki, bir neçə aydan sonra o da açılışa hazır olacaq və bu, beynəlxalq nəqliyyat dəhlizi olacaq. Buradan keçən həm dəmir yolları, həm avtomobil yolları böyük xeyir gətirəcək. Çünki oraya xidmət edən insanlar işlə təmin olunacaqlar. Bunun Zəngilanın və bütövlükdə Azərbaycanın iqtisadiyyatına çox böyük töhfəsi olacaq.

Ermənistanla burada sərhəd açılandan, Zəngəzur dəhlizi açılandan sonra Zəngilan faktiki surətdə ölkəmizin yeganə rayonu olacaq ki, bunun iki qonşu ölkə ilə sərhəd-keçid məntəqəsi olacaq. Görün, bunun nə qədər böyük əhəmiyyəti var. Çünki bu, həm Şərq-Qərb dəhlizidir, Naxçıvandan Türkiyəyə, sonra Avropaya uzanan yoldur, həm də Şimal-Cənub dəhlizidir. Zəngilandan Ağbənd üzərindən İrana və Fars körfəzinə, buradan Naxçıvana keçməklə Culfaya, yenə də Fars körfəzinə. Bu, beynəlxalq bir mərkəz olacaq, əvəzolunmaz mərkəz olacaq. Biz bunu belə görürük və belə də olacaq. Çünki bu günə qədər bütün planlarımız gerçəkləşib.

Azad olunmuş torpaqlarda görülən işlərlə bağlı biz həm tələsirdik, həm də hər şeyi düzgün etməyə çalışırdıq. Planlı şəkildə, strategiya əsasında ki, hər şey düz-əməlli olsun - həm insanların yaşayışı üçün, məşğulluğu üçün, təhsili üçün, eyni zamanda, ölkə iqtisadiyyatı üçün. Zəngilan rayonunda görün, beş il ərzində 42 meqavatlıq su elektrik stansiyaları tikilmişdi. Sovet vaxtında bu yox idi. İndi bu, Zəngilanı belə müstəqil şəkildə tam enerji ilə təmin edə biləcək, lap burada 200 min əhali yaşasa belə. Amma biz bütövlükdə artıq sudan 300 meqavatdan çox enerji götürürük. Bir-iki il ərzində Günəşdən də götürəcəyik, ondan da çox.

Bütün bunlar ölkənin gücüdür. Yenə də deyirəm, hər şey planlı şəkildə aparılır. Biz çalışırıq ki, tezliklə keçmiş köçkünləri öz doğma vətənlərinə qaytaraq. Amma, eyni zamanda, hər şey elə qurulmalıdır ki, azad edilmiş ərazilər nəinki Azərbaycanda, dünyada nümunəvi olsun və bu da olacaq.

Sizi bir daha təbrik edirəm, sizə cansağlığı arzulayıram.

* * *

Sonra Prezident İlham Əliyev yaşayış kompleksinə köçən ailələrlə söhbət edib.





**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib







*Mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Fəxri xiyabanı ziyarət ediblər.*

Müdafiə Nazirliyinin rəhbərliyi Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyub, xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Müdafiə Nazirliyi xəbər verir ki, sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı ziyarət olunub, üzərinə gül dəstələri qoyulub, ehtiram nümayiş etdirilib.

# Ölkəmizdə birgə taktiki-xüsusi təlim keçirilib







*Bakıda Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə "Radioelektron mübarizə bölmələrinin birgə taktiki-xüsusi təlimi" keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, mayın 8-də Müdafiə Nazirliyinin rəhbərliyi və digər vəzifəli şəxslər təlimin gedişatını izləyib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənova təlimin mövzusu, mərhələləri və icra olunma ardıcıllığı məruzə edilib.

Bildirilib ki, şəxsi heyətin nəzəri və praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə iştirakçılar yüksək texnologiyaları tətbiq edərək müxtəlif qoşun növləri ilə qarşılıqlı əlaqədə müasir döyüş üsullarını məşq edib, qarşıya qoyulan tapşırıqları yüksək keyfiyyətlə icra edərək məqsədlərinə nail olublar.

Müdafiə Nazirliyinin rəhbərliyi bölmələrin taktiki-xüsusi fəaliyyətlərini və şəxsi heyətin döyüş hazırlığını yüksək qiymətləndirib.







# Ulu Öndər Heydər Əliyevin 103 illiyinə həsr olunmuş Respublika elmi-praktiki konfrans başa çatıb

*Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda Ulu Öndər Heydər Əliyevin 103 illiyinə həsr olunmuş "Müasir hərbi təhsil və hərb elminin inkişaf perspektivləri" adlı Respublika elmi-praktiki konfransı başa çatıb.*

Müdafiə Nazirliyi xəbər verir ki, konfransda Hərbi institutun, respublikanın ali təhsil müəssisələrinin 30-dan çox və aidiyyəti təşkilatların 120-dən çox professor-müəllim heyəti iştirak edib.







Əvvəlcə rəhbər heyət institutun ərazisindəki Ulu Öndər Heydər Əliyevin abidəsini və şəhidlərin Xatirə kompleksini ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.

Plenar iclasda öncə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Açılış nitqi ilə çıxış edən MMU-nun rektoru general-mayor Gündüz Əbdülov konfrans iştirakçılarını salamlayıb, Ulu Öndər Heydər Əliyevin hərbi təhsil və hərb elminin inkişafı ilə bağlı atdığı məqsədyönlü işlər barədə danışıb.

Daha sonra "Heydər Əliyev və milli hərbi təhsil sisteminin formalaşması" mövzusunda videoçarx nümayiş etdirilib.

"Xüsusi təyinatlı ali təhsil müəssisələrində təhsil və elmin inkişaf perspektivləri" mövzusunda gedən panel müzakirələrdə Heydər Əliyev adına Hərbi İnstitutun və digər qurumlardan dəvət edilmiş professor-müəllim heyətlərinin çıxışları dinlənilib.

Elmi müzakirələrdən sonra tədbir bədii hissə ilə yekunlaşıb.

# Azərbaycan müdafiə naziri Slovakiyaya rəsmi səfər edib








Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinakın dəvəti ilə bu ölkəyə rəsmi səfər edib.



Müdafiə Nazirliyi xəbər verir ki, Bratislava şəhərində keçirilən qarşılanma mərasimindən sonra Azərbaycanın müdafiə naziri onun şərəfinə düzülmüş qarovul dəhlizindən keçib.

General-polkovnik Zakir Həsənov Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinak ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Slovakiya arasında hərbi əməkdaşlığın cari vəziyyəti barədə ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Tərəflər, həmçinin hərbi, hərbi-texniki əməkdaşlıqların inkişaf perspektivlərini müzakirə ediblər.

Qarşılıqlı hədiyyə mübadiləsindən sonra general-polkovnik Zakir Həsənov Xatirə kitabını imzalayıb.



# Müdafiə Nazirliyində media nümayəndələri ilə təlim-treninq keçirilib







Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində Nazirliyin, Medianın İnkişafı Agentliyinin və media nümayəndələrinin iştirakı ilə təlim-treninq keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi - mətbuat katibi polkovnik Anar Eyvazov çıxış edərək Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası və tədbirin məqsədi barədə məlumatları iştirakçıların diqqətinə çatdırıb.

Təlim-treninqin əvvəlində iştirakçılar "İnformasiya təhlükəsizliyi, dövlət sirrinin qorunması", "Dezinformasiyaya qarşı mübarizə və böhran kommunikasiyası", "Ordu-cəmiyyət münasibətləri, vətənpərvərlik təbliği və ictimai diplomatiya", "Media ilə qarşılıqlı fəaliyyət, ictimai nəzarət və sosial məsuliyyət", "Hərbi etik normalar və peşə məsuliyyəti" və digər mövzularda nəzəri biliklərə yiyələniblər.

Sonra media nümayəndələri Quru Qoşunları, Hərbi Hava və Hərbi Dəniz qüvvələrinin hərbi hissələrində şəxsi heyətin gündəlik fəaliyyətini izləyib və yaradılan şəraitlə yaxından tanış olublar.

Hərbi hissələrə səfər zamanı bölmələrin arsenalında olan müasir silah və döyüş texnikası qonaqlara təqdim edilib.

Təlim-treninqin sonunda media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb, təkliflər dinlənildikdən sonra iştirakçılara sertifikatlar təqdim olunub.

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş şahmat yarışı keçirilib







Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş şahmat yarışı keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, komandalar arasında yarış ruhunun və sağlam rəqabət mühitinin gücləndirilməsi məqsədilə keçirilən yarış iştirakçıların zehni qabiliyyətlərinin inkişafına, qərarqəbuletmə, analitik düşünmə və təşəbbüskarlıq bacarıqlarının formalaşdırılmasına xidmət edib.

Gərgin mübarizə şəraitində keçən və ümumilikdə 8 komandanın iştirak etdiyi yarışda birinci yerə İntellektual qabiliyyətli bölmənin, ikinci yerə Heydər Əliyev adına Hərbi İnstitutun, üçüncü yerə isə Hərbi İdarəetmə İnstitutunun komandası layiq görülüb.

Sonda qaliblər kubok, fəxri fərman və medallarla təltif olunublar.

# Azərbaycan Ordusunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü qeyd edilib

*Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə nazirliyin tabeliyində olan birlik, birləşmə və hərbi hissələrdə silsilə tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa edilib.

Tədbirlərdə çıxış edənlər bildiriblər ki, bütün həyatını xalqına xidmətə həsr edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 10 may 1923-cü ildə Naxçıvanda anadan olub. Onun ölkəmizə rəhbərlik etdiyi illərdə respublikamız böyük inkişaf yolu keçib, beynəlxalq aləmdə nüfuzu daha da artıb.

Ulu Öndərin xalqımızın milli şüurunun oyanışı istiqamətində gördüyü böyük işlər nəticəsində Azərbaycan müstəqil və suveren dövlət kimi mövcudluğunu təmin edib.

Onun yorulmaz fəaliyyəti nəticəsində bütün sahələrdə olduğu kimi, ordu quruculuğu prosesində də möhkəm təməl yaradılmış, mühüm uğurlar qazanılmış və genişmiqyaslı islahatlar həyata keçirilmişdir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan Ordusu bu gün dünyanın ən güclü orduları sırasında layiqli yer tutmaqdadır.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində dövlətçiliyimizin iqtisadi dayaqları daha da möhkəmlənib.

Ölkəmiz demokratik dövlət və ordu quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edib. Hərbi potensialı gündən-günə artan ordumuz torpaqlarımızı işğaldan azad edərək tarixi ədaləti bərpa edib və şanlı Zəfər qazanıb.

Həmçinin vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsi, xalqımızın rifahının yüksəldilməsi, ordumuzun və dövlətçiliyimizin inkişafı istiqamətində misilsiz xidmətləri, eləcə də əziz xatirəsi Azərbaycan Ordusunun şəxsi heyətinin və bütövlükdə xalqımızın qəlbində daim yaşayacaq, heç vaxt unudulmayacaqdır.

Silsilə tədbirlər çərçivəsində şəxsi heyətin Heydər Əliyev Mərkəzlərinə, muzeylərə ziyarəti təşkil olunub, hərbi hissələrdə Ulu Öndərin həyat və fəaliyyəti barədə videofilmlər nümayiş etdirilib.

Sonda vətənpərvərlik ruhunda mədəni-kütləvi tədbirlər keçirilib.

* * *

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "N" hərbi hissəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbir keçirildi. Tədbirdə hərbi hissənin şəxsi heyəti və H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi iştirak etdi.

Əvvəlcə H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin bölmə rəisi kapitan Elçin Salmanov əvəzolunmaz lider, xilaskar rəhbər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar çıxışında bildirdi ki, Azərbaycan xalqının mübarizə tarixində Ulu Öndər Heydər Əliyevin adı Böyük Xilaskar, Əbədiyaşar Komandan, Ümummilli Lider kimi əbədiləşdi, müstəqilliyimizi əbədi, dönməz edən Dahi Şəxsiyyət kimi tarixləşdi. "Görkəmli dövlət xadimi, dünyamiqyaslı siyasətçi, Azərbaycan milli dövlətçiliyini bütün təhlükələrdən xilas edib qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət kimi Ulu Öndərin həyat və fəaliyyəti müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil edir. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində öz xalqına xidmət, sonsuz məhəbbət amalı ilə yaşayıb yaratmışdır. Bu gün müstəqil ölkəmizin müasir bir dövlət kimi mövcud olmasında, dünya birliyində özünəlayiq yer tutmasında Dahi Rəhbərin müstəsna xidmətləri vardır. Ulu Öndər Heydər Əliyev xalqımıza siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş Azərbaycanı bəxş etdi. Böyük dühа sahibi Ümummilli Lider deyirdi: "Doğma, canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda verməyə hazıram". Bu gün əminliklə demək olar ki, respublikamızın böyük çətinliklər bahasına əldə etdiyi suverenliyinin, iqtisadi müstəqilliyinin əsası Dahi Rəhbər Heydər Əliyev tərəfindən məhz ötən əsrin 70-80-ci illərində qoyulmuş möhkəm təmələ, güclü intellektual potensiala söykənir. Bu möhkəm təməl müstəqillik illərində Azərbaycan dövlətinin sürətli inkişafına təkan vermişdir".

Bölmə rəisi çıxışına davam edərək qeyd etdi ki, Ulu Öndərin ölkəmizə rəhbərliyinin ikinci dövrü, 1993-cü ildə Naxçıvandan Bakıya gəlməsi ziddiyyətli, qarışıq bir vaxta təsadüf etmişdir. Belə ki, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə Azərbaycana xilaskar missiyası ilə qayıdan Ümummilli Lider Heydər Əliyev o dövrdə ölkəmizdə baş alıb gedən özbaşınalığın, hakimiyyətsizliyin, qanunsuz fəaliyyət göstərən silahlı dəstələrin, vətəndaş müharibəsinin, xaosun və digər xoşagəlməz ünsürlərin qarşısının alınması üçün öz canına və həyatına olan böyük təhlükələrə baxmayaraq, ölkəmizdə hökm sürən anarxiyanın, dövlət çevrilişi cəhdlərinin qarşısını aldı, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi. Bununla da respublikamızda sabitlik bərqərar olundu, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna başlanıldı. Azərbaycanda qısa bir zaman kəsiyində hökm sürən iqtisadi tənəzzülün qarşısını alan dünyaşöhrətli dövlət xadimi, Ulu Öndər Heydər Əliyev respublikamızın davamlı iqtisadi inkişafı istiqamətlərində islahatlar həyata keçirdi. Dahi Rəhbər öz şərəfli və möhtəşəm fəaliyyəti ilə müasir müstəqil Azərbaycan dövlətini yaratdı, onun idarəçilik mexanizmini formalaşdırdı. Ümummilli Lider müstəqil Azərbaycanın bir dövlət kimi əbədi olmasını, onun müstəqilliyinin daim qorunmasını özünün ən ali işi, ümdə vəzifəsi bilirdi".

Kapitan Elçin Salmanov çıxışının sonunda vurğuladı ki, Dahi Şəxsiyyət yaşadığı bir ömür boyu xalqa arxalanmışdı. "Müasir Azərbaycanın yaradıcısı və fədakar oğlu öz həyatının mənasını doğma xalqına xidmətdə görürdü, bu məqsədlə də yorulmadan çalışırdı. Ulu Öndərin mənalı ömür yolu Vətənə sədaqət nümunəsidir. Dünyanın ən tanınmış siyasətçiləri bu böyük zəka sahibinin işlərini, dəyərli irsini örnək kimi qəbul edirdi, çünki bu siyasətçilər hələ Sovet İttifaqı dövründə onun nəhəng işlərin həyata keçirilməsinə qadir olduğunun şahidi idilər. Heydər Əliyev dühası hər zaman başımızın üstündə parlayan məşəldir, onun tövsiyələri və müqəddəs irsi fəaliyyətimizi istiqamətləndirən təkrarolunmaz, güclü örnəkdir. O Böyük Şəxsiyyətin göstərdiyi yolla müasir Azərbaycan daha da inkişaf edəcək. Bu gün Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və siyasi kursu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli Liderin başladığı, lakin sona çatdıra bilmədiyi işlər dövlət başçısı tərəfindən ardıcıllıqla həyata keçirilir. Azərbaycanın müstəqilliyini əbədi, dönməz edən dahi şəxsiyyətin ideyaları yaşayır və qalib gəlir".

Tədbirdə H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi Ulu Öndərin xatirəsinə həsr olunmuş mahnılar ifa etdi və şeirlər səsləndirdi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**



Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbir keçirildi. Tədbirdə zabitlər, müəllimlər, dinləyicilər və qonaqlar iştirak etdilər.

Tədbirin aparıcısı kapitan Elçin Salmanov xalqımızın ictimai-siyasi həyatında mühüm rol oynamış, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin həyat və fəaliyyətindən qısa məlumat verdi.

Təlim və Tədris Mərkəzinin rəisi, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov çıxış edərək bildirdi ki, 1923-cü ildə Azərbaycanın qədim yurdu Naxçıvan şəhərində anadan olmuş Heydər Əlirza oğlu Əliyev tarixin çətin sınaqlarından keçib. "O, sovetlər birliyində Azərbaycanda Dövlət Təhlükəsizliyi orqanında əmək fəaliyyətinə başlayıb. Olduqca bacarıqlı, bilikli və prinsipial mövqeyi ilə sayılıb-seçilən əməkdaşlardan olub. Dövlət təhlükəsizliyi sahəsində çalışdığı müddətdə xalqa və dövlətə sədaqətlə xidmət edib. 1967-1969-cu illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində çalışıb. 1969-cu ilin iyulunda isə Azərbaycan SSR Kommunist Partiyasının Mərkəzi Komitəsinin Birinci Katibi təyin olunub. Heydər Əliyevin əsas siyasi fəaliyyəti də məhz bu dövrdən başlayıb. Müasir Azərbaycanın qüdrətli bir dövlətə çevrilməsində Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Hələ sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi dövrdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına sərəncam verib. 1991-ci ildə Azərbaycan xalqı tarixi əbədi müstəqilliyə qədəm qoyanda onun təhlükəsizliyini təmin etmək ən ümdə məsələlərdən idi. Ölkənin ərazi bütövlüyünə qarşı erməni təcavüzü baş qaldırmışdı. Xalqımız tarixin ən çətin dövrünü yaşayırdı. Hakimiyyətdə siyasi böhran hökm sürürdü. Ermənistanın ərazi iddiası Azərbaycanda hakimiyyətdə xaosa, hərc-mərcliyə səbəb olmuşdu. Ölkə idarəolunmaz həddə idi. Xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev uzaqgörən, müdrik siyasəti ilə xalqı və dövləti düşdüyü bu ağır vəziyyətdən xilas etdi.

Azərbaycan Ordusunun yenidən yaranması və formalaşması Heydər Əliyevin adı ilə bağlıdır. Birinci Qarabağ müharibəsi zamanı bir sıra uğursuzluqların səbəbini araşdırdı. Orduda köklü islahatların aparılmasına ehtiyac yarandığını gördü. Və 1994-cü il mayın 12-də "Bişkek Protokolu"na əsasən, cəbhədə qarşı tərəflə uzun sürən atəşkəsin əldə olunmasına nail oldu. Vahid komandanlığın tərkibində idarə olunan ordu yaratdı.

Polkovnik Nizami Mövlanov onu da bildirdi ki, Azərbaycan Ordusunun formalaşmasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunları mühüm rol oynayıblar. Tarixi Zəfərin başlanğıcını həmin dövrdə məhz Ulu Öndər Heydər Əliyev qoydu. Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordunun gücləndirilməsinə diqqət ayırdı.

Qısa müddətdə ordumuzu Cənubi Qafqazın ən güclü ordusuna çevirdi. Ordunun arsenalına ən yeni istehsal silahları daxil etdi. Erməni işğalı altında olmuş ərazilərimizi azad etmək üçün qarşı tərəflə danışıqlar apardı. Lakin danışıqlar nəticə vermədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin növbəti təxribatlarına cavab olaraq orduya əks-hücum əmri verdi. Cəmi 44 gün davam edən müharibədə Ermənistan ordusu darmadağın edildi. Düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu. Ali Baş Komandanın rəhbərliyi altında ordumuz tarixin ən böyük Zəferini qazandı.

Söz yox ki, istər siyasi arenada, istərsə də hərbdə qazanılan bütün uğurların önündə Ulu Öndər Heydər Əliyev və onun ideyaları dayanır. Haqlı olaraq xalqımız hər il 10 May - Heydər Əliyevin doğum gününü böyük sevinclə qeyd edir.

Tədbir iştirakçıları sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərliyi tərənnüm edən mahnıları dinlədilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

(Ardı 7-ci səhifədə)

# Azərbaycan Ordusunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü qeyd edilib



(Əvvəli 6-cı səhifədə)

Azərbaycan Hərb Tarix Muzeyində Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103 illiyi ilə əlaqədar tədbir keçirdi.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü qarşısına gül dəstəsi qoyuldu, muzeyi ziyarət edildi.

Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olundu.

Komitənin sədri Kərəm Rzayev tədbiri açaraq bildirdi ki, bu gün biz müasir Azərbaycan dövlətinin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü qeyd edirik. "Ulu Öndərin həyat yolu və fəaliyyəti hər bir azərbaycanlı üçün vətənpərvərlik, dövlətə sədaqət və xidmət nümunəsidir.

Azərbaycan tarixində elə məqamlar olub ki, dövlətçiliyimizin taleyi ciddi təhlükə ilə üzüzə qalıb. Məhz belə bir mürəkkəb dövrdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev xilaskarlıq missiyasını öz üzərinə götürərək ölkəmizi parçalanmaqdan, xaosdan və vətəndaş qarşıdurmasından xilas etdi. Onun qətiyyətli siyasəti nəticəsində Azərbaycanda sabitlik bərqərar oldu və müstəqilliyimizin qorunması üçün möhkəm təməl yaradıldı. Bu xilaskarlıq missiyası yalnız siyasi deyil, eyni zamanda, hərbi sahədə də özünü bariz şəkildə göstərdi.

Ulu Öndər Heydər Əliyev hələ sovet dövründə Azərbaycanda hərbi kadr hazırlığı məsələsini və onun əhəmiyyətini dərindən düşünürdü. Dahi Rəhbərin təşəbbüsü ilə o illərdə respublikamızda hərbi məktəbin yaradılması istiqamətində mühüm addımlar atıldı, gənclərin hərbi sahəyə marağı artırıldı. Bu siyasət nəticəsində minlərlə azərbaycanlı gənc peşəkar hərbçi kimi formalaşaraq gələcəkdə milli ordumuzun əsasını təşkil etdi".

Komitə sədri Kərəm Rzayev, həmçinin vurğuladı ki, müstəqillik dövründə Ulu Öndərin həyata keçirdiyi ordu quruculuğu siyasəti tamamilə yeni mərhələyə qədəm qoydu. "1993-cü ildən sonra ölkədə nizami ordunun formalaşdırılması, vahid komandanlıq sisteminin yaradılması və hərbi intizamın bərpası istiqamətində mühüm qərarlar qəbul olundu. Silahlı Qüvvələrdə pərakəndəlik aradan qaldırıldı, dövlətə sadiq və peşəkar ordu modeli qurulmağa başlandı.

Ulu Öndər hər zaman vurğulayırdı ki, güclü ordu güclü dövlətin əsas dayağıdır. Məhz bu uzaqgörən siyasət nəticəsində Azərbaycan Ordusu tədricən regionun ən güclü ordularından birinə çevrilmək yoluna qədəm qoydu.

Bu gün biz qürurla deyə bilərik ki, Ulu Öndərin əsasını qoyduğu ordu quruculuğu siyasəti hazırda ölkəmizdə layiqincə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəlib.

2020-ci ildə əldə olunan tarixi Zəfər bu siyasətin ən parlaq nəticəsidir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün ərzində işğal altında olan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Bu qələbə həm də Ulu Öndər Heydər Əliyevin illər öncə müəyyən etdiyi strateji xəttin məntiqi nəticəsi kimi tarixə yazıldı".

Tədbirdə çıxış edən ehtiyatda olan polkovnik Elşad Pənahov, Aygün Məmmədova, Daşdəmir Əliyev, Sahib Əsədov, Gülnarə Kələntərova, Sahil Osmanlı Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsindən, xilaskarlıq missiyasının Azərbaycan tarixində oynadığı müstəsna rolundan bəhs etdilər. Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi kursun bu gün də uğurla davam etdirildiyini vurğuladılar. Diqqətə çatdırıldı ki, Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi kursu, azərbaycançılıq ideologiyası daim öyrənilməli, gənc nəsillərə aşılanmalıdır.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solisti gizir Leyla Əliyeva hərbi vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdi.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**



Azərbaycan Hərb Tarixi Muzeyində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin hərbi qulluqçuları, muzey əməkdaşları, ziyalılar və digər qonaqlar iştirak etdilər.

Tədbirin açılış mərasimində Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Elşad Pənahov çıxış edərək bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, milli ordunun formalaşdırılması və xalqın rifahı naminə həyata keçirdiyi siyasət ölkəmizin inkişafında mühüm rol oynayıb. Qeyd olundu ki, Ulu Öndərin müəyyən etdiyi dövlətçilik xətti bu gün də uğurla davam etdirilir, Azərbaycanın siyasi, iqtisadi və hərbi qüdrətinin artırılmasına xidmət edir.

Daha sonra muzey rəisi vurğuladı ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan Silahlı Qüvvələrinin inkişafına xüsusi diqqət yetirib, milli hərbi kadrların hazırlanması və peşəkar ordunun formalaşdırılması istiqamətində mühüm addımlar atıb. "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin fəaliyyətinin genişləndirilməsi, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar və hərbi intizamın gücləndirilməsi müasir Azərbaycan Ordusunun formalaşmasına mühüm töhfə verib".

Ehtiyatda olan polkovnik E.Pənahov çıxışında, həmçinin onu da qeyd etdi ki, bu gün Azərbaycan Ordusunun qazandığı nailiyyətlər və əldə olunan tarixi zəfərlər Heydər Əliyev siyasətinin uğurlu nəticəsidir.

Sonra Milli Müdafiə Universitetinin əməkdaşı, ehtiyatda olan polkovnik Etibar Quliyev "1969-1993-cü illərdə Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin xüsusiyyətləri və idarəçilik modeli" mövzusunda məruzə ilə çıxış etdi. Məruzədə bildirildi ki, Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan mürəkkəb tarixi mərhələlərdən uğurla keçərək müstəqil və güclü dövlət kimi inkişaf yoluna qədəm qoyub. Ulu Öndərin dövlət idarəçiliyi prinsipləri bu gün də Azərbaycanın tərəqqisinin əsas istiqamətlərindən biri olaraq qalır.

Tədbir çərçivəsində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirildi. Filmdə Heydər Əliyevin xalqına bağlılığı, milli maraqları daim üstün tutması, dövlətçilik ənənələrinin qorunması və gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi istiqamətində gördüyü işlər geniş şəkildə əks olundu.

Daha sonra Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun professoru, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Vüqar Məmmədzadə "Heydər Əliyev və milli dövlətçilik strategiyası" mövzusunda çıxış etdi. Natiq vurğuladı ki, Ulu Öndərin müəyyən etdiyi siyasi kurs Azərbaycanın milli maraqlarının qorunmasına, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə və ordumuzun gücləndirilməsinə xidmət edən mühüm strateji xətdir. O qeyd etdi ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən həmin siyasi kurs uğurla davam etdirilir.

Tədbirdə çıxış edənlər müasir Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətinin əsasını məhz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının təşkil etməsini xüsusi vurğuladılar. Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edərək bildirdilər ki, Heydər Əliyevin zəngin dövlətçilik irsi gələcək nəsillər üçün mühüm örnəkdir.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərlik mövzusunda musiqi nömrələri təqdim etdilər.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş minifutbol birinciliyi başa çatıb



Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən, Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri, Nazirliyin baş idarə və idarələri, xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi qulluqçuları arasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş minifutbol birinciliyinin bağlanış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Mərkəzi Ordu İdman Klubunun bazasında keçirilən birincilikdə əvvəlcə Ulu Öndərin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiətilə Dövlət Himni səsləndirilib.

Bağlanış mərasimində çıxış edən Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Cavid Ağayev bu cür yarışların hərbi qulluqçuların fiziki hazırlığının yüksək səviyyədə saxlanılmasında və komanda ruhunun möhkəmlənməsində mühüm rol oynadığını vurğulayaraq, qalib komandaları Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.



Qeyd edək ki, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) referisi tərəfindən idarə olunan final görüşündə Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələrinin komandaları qarşılaşıblar. Gərgin mübarizə şəraitində keçən yarışda Hərbi Dəniz Qüvvələrinin komandası birinciliyin qalibi olub.

Tədbirin sonunda qalib komandalara kubok və medallar təqdim olunub.

# “Üçrəngli Bayrağımızı və Qalib Azərbaycan əsgəri adını daim uca tutacağıq”

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2026-cı ilin hazırlıq planına müvafiq olaraq, mayın 10-da Azərbaycan Ordusunda gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Hərbi orkestrlərin müşayiətilə döyüş bayraqları təntənəli surətdə sıra meydanlarına gətirildikdən sonra tədbirlər açıq elan olunub.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Təntənəli surətdə Hərbi Andı qəbul edən gənc əsgərlər Vətənə sadiq olacaqlarına söz veriblər.

Müdafiə Nazirliyinin nümayəndələri və hərbi hissə komandirləri çıxış edərək andiçmə mərasiminin 10 may tarixinə - xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103 illiyinə təsadüf etməsini xüsusi vurğulayaraq, Ulu Öndərin şərəfli ömür yolu və çoxşaxəli fəaliyyətindən, xalqımız və dövlətçiliyimiz üçün gördüyü əvəzsiz xidmətlərdən danışıb, gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib, onlara Vətənə, dövlətə və Ali Baş Komandana, Hərbi Anda sadiq olmalarını, nümunəvi xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş hazırlıqlarını daim yüksəltmələrini, komandir-rəis heyətinin əmr və göstərişlərini dəqiq və vaxtında yerinə yetirmələrini, torpaqlarımızın müdafiəsi naminə hər an hazır olmalarını tövsiyə ediblər.

Andiçmə mərasimləri hərbi qulluqçuların təntənəli marşlarla tribunanın önündən keçidləri ilə başa çatıb.

Hərbi qulluqçular üçün bayram süfrələri təşkil edilib və vətənpərvərlik ruhunda mədəni-kütləvi tədbirlər keçirilib.







Əməkdaşlarımız Vətənə sədaqət andı içən gənc əsgərlərimizlə görüşüb, onların təəssüratlarını qələmə alıblar.

* * *

**Əsgər Xaqani Həsənov:**

- Bu gün həm qürurlu, həm sevincli, həm də kövrək hisslər içindəyəm. Hərbi Andı qəbul etdim. Bu mənim üçün həyatımın unudulmaz anlarından biridir. Çünki artıq Qalib Ordunun bir fərdi oldum. Andı qəbul edib bu formanı daşımaq Vətən qarşısında cavabdehlik, məsuliyyət, ailəm qarşısında qürur deməkdir. Şəhidlərimizin ruhu, müharibə iştirakçılarının sınayıcı baxışları qarşısında əsl kişi duruşu deməkdir. Onların bizə əmanət etdikləri Vətən sevgisini qəlbimdə daşıyaraq torpaqlarımızın keşiyində şərəflə dayanacağıma söz verirəm.



**Əsgər Kənan Məmmədov:**

- Hərbi Andın ürəyimi bu qədər titrədəcəyini, qürurumu bu qədər oxşayacağını özüm də təxmin etməzdim. Bu şərəfli an məni Vətənin keşiyində yorulmadan dayanmağa ruhlandırdı. Qalib ölkənin əsgəri olmağımla fəxr edirəm!

**Əsgər Məmməd Tağıyev:**

- Bu gün əsgər formasını geyinib Hərbi Andı içdikdən sonra özümü başqa insan kimi hiss edirəm. Daşıdığım geyimin məsuliyyətini dərk etməyə başlayıram. Xidmətdə olmuş dostlarımın xatirələrini dinlədikcə bu günü xəyalımda canlandırırdım. İndi burada and içən əsgər yoldaşlarımla birgə çətin, lakin şərəfli yolu birgə addımlayacaq, gələcəkdə görüşsək, öz hekayəmizi bölüşəcəyik. Xidmətimi şərəf və ləyaqətlə yerinə yetirməyə var qüvvəmlə çalışacağam.



Vətənin hər qarışı doğmadır, müqəddəsdir. Bu torpaqlar şəhid qardaşlarımızdan bizə əmanətdir. Ona görə də onu göz bəbəyim kimi qoruyacağıma söz verirəm.

**Əsgər Cəfər Mehmanov:**

- Bu gün həyatımın ən qürurlu günlərindən biridir. Üçrəngli müqəddəs bayrağımızın qarşısında and içərkən Vətənə xidmət etməyin məsuliyyətini dərindən hiss etdim. Ailəmin sevinc dolu baxışları mənə əlavə güc verdi. Əsgər yoldaşlarımla eyni sırada dayanmaq aramızda qardaşlıq hissini daha da möhkəmləndirdi. Bu gündən sonra Vətənə layiq xidmət etməyi özümə ən müqəddəs borc hesab edirəm.



**Əsgər Sadiq İsmayılov:**

- Bu günə qədər həyəcanlı anlarım çox olub. Ancaq bugünkü andiçmə mərasimi çox fərqli, bir o qədər də qürurlandırıcıdır. Artıq anlayırsan ki, bu, təkcə sənin məsuliyyətin deyil. Müqəddəs torpaq uğrunda şəhidlik zirvəsinə ucalıb qəhrəmanlıq tarixi yazan igidlərin Vətəni sənə əmanətdir. Uşaqlıqdan bizə aşılanan Ana Vətənə olan övladlıq borcunu şərəflə, mərdliklə yerinə yetirməyə çalışacağıq. Valideynlərimin və komandirlərimin mənə olan etimadını hərbi xidmətimdə doğrultmağa çalışacağam.





**Əsgər Əhməd Abdullayev:**

- Bu gün biz gənc əsgərlər Hərbi Andı qəbul edərək Azərbaycan Ordusunun sıralarına daxil olduq. Vətənimiz Azərbaycanın müdafiəsində, ərazi bütövlüyümüzün qorunmasında əzmlə dayanacağımıza and içdik. Hərbi xidmətdə olmaq hər bir Azərbaycan gəncinin həyatının, ömrünün qürurlu və şərəfli səhifəsi sayılır. Müqəddəs Vətən andını qəbul edən bütün gənc əsgərləri ürəkdən təbrik edir, onlara hərbi xidmətlərində uğurlar arzulayıram.



**Əsgər Nihad Yusifli:**

- Bu gün çox qürurluyam ki, Hərbi And içib rəşadətli ordumuzun sıralarına daxil olmuşam. Şəhidlərimizin bizə əmanəti olan Vətən torpaqlarını qorumaq və onun keşiyində şərəflə dayanmaq hər birimizin müqəddəs borcudur. Qəhrəman şəhidlərimizin şanlı döyüş yolu bizə örnəkdir. Onların yarımçıq qalmış arzularını biz gənclər işimizlə, Vətənə xidmətimizlə davam etdirməliyik. Əsgər yoldaşlarımı andiçmə günü münasibətilə ürəkdən təbrik edir, hər birinə xidmətlərində nailiyyətlər diləyirəm.

**Əsgər Əlizamin Səlifov:**

- Hərbi Andın mətnini oxuyanda sanki çiyinlərimdə məsuliyyətin ağırlığını hiss etdim. Burada olmaq mənim üçün sadəcə xidmət deyil, həm də qürurverici anlardan biridir. Bu anı illər sonra belə unutmayacağımı bilirəm. And içərkən ailəmin, xalqımın və dövlətimin etimadını düşündüm. Bu etimada layiq olmaq üçün daim üzərimizdə çalışacağıq.

**Əsgər Əkbər Nərimanov:**

- Əsgərlik insanın içində fərqli bir iradə yaradır. Bu gün biz təkcə and içmədik, həm də bir amal ətrafında birləşdik. Biz Vətənin əsgərləri Hərbi Andımıza sadiq qalaraq buradakı xidmət yolumuzu inamla davam etdirəcəyik. Söz verirəm ki, Vətənə layiqli, nümunəvi övlad olub, xidmətimlə hər kəsi sevindirəcəyəm. Bu formanı şərəflə daşıyacağam.

**Əsgər Səbuhi Məmmədov:**

- Azərbaycan əsgəri olaraq, Vətənimə və xalqıma sədaqətlə xidmət edəcəyimə and içirəm. Dövlətimizin müstəqilliyini və torpaqlarımızın bütövlüyünü qorumaq üçün hər zaman hazır olacağam. Hərbi nizam-intizama ciddi əməl edib, komandirlər tərəfindən verilən əmrləri yerinə yetirməyə çalışacağam. Əsgər yoldaşlarımla birlikdə Vətənimizin keşiyində ayıq-sayıq duracağam. Üçrəngli Bayrağımızı və Qalib Azərbaycan əsgəri adını daim uca tutacağıma söz verirəm. Vətənə xidmət etmək mənim üçün ən böyük qürur və müqəddəs borcdur.





**"Azərbaycan Ordusu"**

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 491
Nüsxə 3653